**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AQRAR SAHƏNİN MODERNLƏŞDİRİLMƏSİNİN İSTEHSALIN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Yeganə Zakir qızı Məmmədli**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetinin "Aqrar sahənin iqtisadiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Veysəl Seyfəl oğlu Əyyubov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Vahid Vaqif oğlu Gərayev**

iqtisad üzrə fəlsəfə doktoru
**Vüsalə Musa qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Müşfiq Cəmil oğlu Atakişiyev**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmlər doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyanın və qloballaşmanın genişlənməsi iqtisadiyyatın müxtəlif sferalarında olduğu kimi aqrar sahədə də istehsalın artırılması və iqtisadi səmərəliliyinin yüksəldilməsinə istiqamətlənən modernləşdirmə siyasətinin həyata keçirilməsi zərurətini yaratmışdır. Mövcud iqtisadi şəraitdə ölkənin ərzaq təhlükəsizliyində müstəsna əhəmiyyət kəsb edən etibarlı ərzaq təminatı sisteminin yaradılmasını, bi istiqamətdə həyata keçirilən iqtisadi siyasətin davamlı olaraq təkmilləşdirilməsini tələb edir. Ərzaq təminatı ilə bağlı yaranan və qlobal iqitsadiyyatın yeni inkişaf strategiyasını müəyyənləşdirən problemlər modern və innovasiyalara söykənən kənd təsərrüfatı istehsalının formalaşmasını aqrar siyasətin prioritetlərindən biri kimi ortaya qoyur. Aqrar sferanın modernləşdirilməsi müasir sosial-iqtisadi tələblərə, normalara və standartlara uyğun şəkildə reallaşdırılan davamlı yeniləşdirmə prosesi kimi təzahür etdiyi üçün kənd təsərrüfatı istehsalçılarının bu prosesə reaksiyası da özünü müsbət cəhətləri ilə biruzə verir. Qeyd edilənlər baxımından ölkə iqtisadiyyatında xüsusi yeri olan aqrar sektorun davamlı inkişafı, onun dünya standartlarına uyğun şəkildə modernləşdirilməsi müstəsna əhəməyyət kəsb edir.

Hazırda aqrar iqtisadiyyatın inkişaf tempi, təşkilati-logistik və infrastruktur imkanlarını, həmçinin davamlı olaraq həyata keçirilən islahatlar aqrar-sənaye sferasının innovativ resursların yaradılması və istehsalatda tətbiqinin genişləndirilməsinə əsaslanan modernləşdirilmiş sistemin formalaşmasının zəruriliyində öz təsdiqini tapır. Lakin müasir texniki standartlara cavab verən informasiya-kommunikasiya texnologiyaları, texniki vasitələr, zəruri məsləhət və xidmət müəssisələri bəzi hallarda kənd təsərrüfatı məhsulları istehsalçılarının tələbatı ilə uzlaşmır. Baxmayaraq ki, son illər istehsalın modernləşdirilməsi və innovasiyalarla təmin edilməsi istiqamətində dövlət tərəfindən mühüm tədbirlər görülmüşdür.

Qeyd edilənlər aqrar sahədə modernləşmə problemlərinin

tədqiqini nəzərdə tutan mövzunun elmi-praktiki əhəmiyyətliliyini və aktuallığını təsdiq edir.

Aqrar sferada istehsalın elmi və texniki cəhətdən modernləşdirilməsi hesabına iqtisadi səmərəliliyinin yüksəldilməsi iqtisadçıların daim diqqət mərkəzində olmuşdur. Respublikamızda Z.Ə. Səmədzadə, S.V.Salahov, Eminov N.O., İ.H.Alıyev, V.S.Əyyubov, F.Ə.Məmmədov, B.X.Ataşov, İ.H.İbrahimov, V.Ə.Qasımlı , M.C. Hüseynov, V.T.Əmrahov, A.S.Şəkərəliyev və başqaları bu istiqamətdə ciddi araşdırmalar aparmışdır. Xarici ölkə alimlərindən A.H.Асаул, С.Н.Гавров, B.H.Plotnikov, M.Блауг, Бём-Баверк, D.Restuccia və başqaları modernləşdirmə problemlərinin araşdırılması ilə bağlı müxtəlif mövzulara müraciət etmişlər.

Lakin aqrar sferada modernləşdirmənin istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə təsirinin tədqiqi ilə bağlı geniş araşdırmalara rast gəlinmir. Ona görə də tədqiqat işində elmi, texniki, innovativ yeniliklərlə müşayət olunan modernləşdirmə və istehsalın iqtisadi səmərəliliyi arasındakı əlaqənin kompleks şəkildə tədqiqi nəzərdə tutulmuşdur.

**Tədqiqatın obyekti və predmeti:** tədqiqatın obyektini aqrar sektorun qlobal və regional (müasir Azərbaycan Respublikasının timsalında) miqyaslı müasir xarakteri, indiki vəziyyəti, davamlı olaraq həyata keçirilən elmi, texniki, texnoloji, informativ və kommunikativ məzmun daşıyan modernləşdirmə tədbiləri nəticəsində öz simasını pozitiv anlamda dəyişmiş kənd təsərrüfatı, tədqiqatın predmetini isə istehsalın iqtisadi səmərəliliyinin daim yüksəldilməsi məqsədi ilə qlobal və regional (Azərbaycan Respublikasının timsalında) iqtisadiyyatın aqrar sektorunda baş verən elmi, texniki, texnoloji, informativ və inteqrativ xarakterli yeniliklər, onların proqressiv-dəyişdirici nəticələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin məqsədi aqrar sahə üzrə modernləşmənin elmi-metodoloji əsaslarının araşdırılması, aqrar sferada modernləşmənin mövcud vəziyyətinin tədqiqi, modernələşdirmə siyasətinin kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsindəki rolunun qiymətləndirilməsi əsasnda elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir.

Qeyd edilən məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- aqrar sferanın davamlı modernləşdirilməsi və istehsalın iqtisadi səmərəliliyinin artırılması ilə bağlı ən nüfuzlu elmi ideyaları, yüksək effektli nəticələr vermiş praktiki tədbirləri araşdırmaq və qiymətləndirməklə modernləşdirmənin nəzəri və metodoloji aspektlərinin müəyyən edilməsi;

- aqrar sferada modernləşdirmə siyasətinin əsas istiqamətlərinin, xüsusiyyətlərinin və istehsalın iqtisadi səmərəliliyinə təsirinin müəyyən edilməsi;

- aqrar sahənin mövcud vəziyyətin təhlili və səmərəliliyinin qiymətləndirilməsi;

- modernləşdirmə və ixracyönümlü istehsal arasındakı asılılığın tədqiqi;

- modernləşdirmənin aqrar sahənin ixrac potensialının inkişafına təsirinin müəyyən edilməsi;

- investisiya qoyuluşu və innovasiya fəaliyyətinin modernləşdirmə prosesindəki rolunun müəyyən edilməsi;

-aqrar modernləşdirmə şəraitində isehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın metodları:** Tədqiqat metodlarının seçilməsində bu sahədə ölkə və xarici tədqiqatçıların, alim və mütəxəssislərin elmi əsərlərindən geniş istifadə edilmiş və riyazi və statistik, müşahidə, eksperiment, iqtisadi modelləşdirmə, müqayisəli təhlil və digər metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

– aqrar sahənin iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün modernləşmə tədbirləri sistemli olaraq genişləndirilməli, beynəlxalq təcrübə nəzərə alınaraq sahənin innovativ inkişafı təmin edilməlidir;

– kənd təsərrüfatı sistemində elmi araşdırmalara sərf edilən xərclər artırılmalı, təhsil, elmi müəssisələr və aqrar istehsal sahələri arasındakı qarşılıqlı münasibətlər genişləndirilməlidir;

– aqrar sahədə dayanıqlı inkişafı təmin etmək, optimal qərarlar

qəbul etmək, mümkün riskləri azaltmaq üçün çevik menecment sistemi yaradılmalı, sahədə elmi tədqiqatların aparılmasına dövlətin dəstəyi gücləndirilməli, tədqiqat işləri stimullaşdırılmalı, və bu məqsədlə xüsusi proqramlar işlənib həyata keçirilməlidir;

– aqrar sektorun səmərəli inkişafını təmin etmək üçün bu sahədə çalışan kiçik və orta biznesin maliyyə əlçatanlığı və uzunmüddətli güzətli kreditlərin verilməsi təmin edilməli, sahənin innovativ inkişafına investisiya qoyuluşu stimullaşdırılmalıdır;

– aqrar sektorun rəqabətqabiliyyətliliyi aşağı səviyyədədir. Aqrar sektor məhsulunun innovativ keyfiyyətinin yaxşılaşdırılması, itkilərin, istehsal xərclərinin aşağı salınması istiqamətində tədbirlər sistemi işlənib həyata keçirilməlidir.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi iqtisadi cəhətdən əsaslandırılmış aşağıdakı istiqamətlərdə öz əksini tapır:

- aqrar sferada modernləşmə tədbirlərinin tətbiqi meyarlarının məqsədəuyğunluğu əsaslandırılmışdır;
- aqrar sferada modernləşmənin kəmiyyət və keyfiyyət baxımından istehsalın iqtisadi səmərəliliyinə təsiri müəyyən edilmişdir;
- aqrar sferanın texniki resurslarla təminatı ilə modernləşmənin zəruriliyi arasındakı əlaqə müəyyən edilmişdir;
- idxalın ixracla əvəzlənməsi məqsədilə istehsalın modernləşməsinin əhəmiyyətliliyi qiymətləndirilmişdir;
- innovasiya və investisiya tətbiqinin modernləmə siyasətinin vacib istiqaməti kimi iqtisadi səmərəliliyə təsiri müəyyənləşdirilmişdir;
- aqrar sahənin modernləşdirilməsi şəraitində isehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti:** Tədqiqatın nəticələri əsasında aqrar sahədə modernləşdirmənin və istehsalın müasir vəziyyəti, eləcə də istehsalın iqtisadi səmərəliliyi qiymətləndirilməklə bu sferada reallaşdırılan modernləşdirmə tədbirlərinin istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə təsiri ilə bağlı elmi-nəzəri müddəalar kompleks şəkildə öyrənilmişdir. Bunun əsasında aqrar sektorda baş verən elmi,

texniki, innovativ və inteqrasiya xarakterli yeniliklər, onların müxtəlif cəhətləri, həmçinin modernləşdirmə prosesinin reallaşdırılması istiqamətləri iqtisadi baxımdan əsaslandırılmışdır.

**Tədqiqatın aprobasiyası və tətbiqi:** Əldə olunmuş nəticələrlə bağlı Azərbaycanda və Rusiyada keçirilən konfranslarda çıxışlar edilmişdir. Onların sırasına "*Aqrar istehsalın artırılmasında modernləşdirmənin rolu*" (Azərbaycan-2017), "*Aqrar sahənin modernləşdirilməsində investisiyaların rolu*" (Azərbaycan-2017), "*Оценка влияния процесса модернизации в аграрном секторе национальной экономики на повышение экономической эффективности производства*" (Rusiya-2019), "*Aqrar sahənin modernləşməsi səviyyəsi və ona təsir edən amillər*" (Azərbaycan-2021), "*Aqrar sferanın modernləşdirilməsi prosesinə investisiyaların təşviqi*" (Azərbaycan-2021), "*İnvestisiya qoyuluşlarının aqrar sahənin modernləşdirmə prosesinə cəlb edilməsi imkanlari*" (Azərbaycan-2021) daxildir. Ümumilikdə tədqiqat işi üzrə, 2 ədədi xaricdə olmaqla, o cümlədən 2-i beynəlxalq xülasələndirmə və indeksləmə bazasına daxil olan jurnalda dərc edilməklə 21 elmi məqalə və tezis çap olunmuşdur. Dissertasiya mövzusu üzrə tədqiqatın nəticələri elmi-nəzəri və praktiki konfranslarda müzakirə edilərək bəyənilmişdir. Tədqiqat işinin nəticələri Azərbaycan Respublikası "Türyançay" fermer təsərrüfatı MMC tərəfindən istifadə üçün qəbul edilmişdir (13.04.2021-ci il tarixli AB12 saylı arayış).

Dissertasiya işinin materiallarından ali məktəblərdə, kolleclərdə "Aqrar iqtisadiyyat", "Aqrar sənaye kompleksinin iqtisadiyyatı və idarə olunması", "Azərbaycan iqtisadiyyatı" fənlərinin tədrisi zamanı istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Tədqiqat işi Gəncə şəhərində yerləşən Azərbaycan Dövlət Aqrar Uniuversitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya işinin ümumi həcmi 229921 işarə təşkil edir. O cümlədən titul vərəqi və mündəricat 2373 işarə, giriş 27217 işarə, I fəsil 47206 işarə, II fəsil 54616 işarə, III fəsil 62855 işarə, nəticə 10977 işarə,

istifadə edilmiş ədəbiyyat siyahısı 16441 işarə, cədvəllər, şəkillər, diaqramlar və istifadə edilmiş ədəbiyyat nəzərə alınmadan dissertasiya işinin həcmi 205244 işarə təşkil edir.

MÜNDƏRİCAT

GİRİŞ

I. FƏSİL. AQRAR SAHƏNİN MODERNLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

1.1. Aqrar sahənin modernləşdirilməsinin nəzəri-metodoloji əsasları.

1.2. Aqrar sferada modernləşdirmənin əsas xüsusiyyətləri

1.3. Modernləşdirmənin aqrar istehsalın iqtisadi səmərəliliyinə təsiri.

II. FƏSİL. AQRAR SAHƏNİN MODERNLƏŞDİRİLMƏSİ SƏVİYYƏSİNİN VƏ İSTEHSALIN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ.

2.1. Aqrar sahənin mövcud vəziyyətin təhlili.

2.2. Aqrar sahənin modernləşdirilməsi səviyyəsi, ona təsir edən amillər.

2.3. Aqrar istehaslın iqtisadi səmərəliliyinin qiymətləndirilməsi.

III FƏSİL AQRAR SAHƏDƏ MODERNLƏŞDİRMƏ SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ İSTEHSALIN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

3.1. Aqrar sahənin modernləşdirməsində dövlətin dəstək və stimullaşdırıcı tədbirlərinin prioritetləri.

3.2. Modernləşdirmə prosesində innovasiyalardan istifadənin genişləndirilməsi perspektivləri.

3.3. İnvestisiya qoyuluşlarının modernləşdirmə prosesinə cəlb edilməsi imkanları.

3.4. Aqrar modernləşdirmə şəraitində isehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri.

NƏTİCƏ

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

# MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**Müddəa 1. Aqrar sahənin iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün modernləşmə tədbirləri sistemli olaraq genişləndirilməli, beynəlxalq təcrübə nəzərə alınaraq sahənin innovativ inkişafı təmin edilməlidir.**

Qloballaşma şəraitində dövlətlərin qarşısında duran ən başlıca vəzifə iqtisadiyyatın müxtəlif sferalarında ən vacib prosesləri iqtisadi-sosial inkişafın tələblərinə uyğun istiqamətə dəyişdirmək, yeniləşmənin və modernləşmənin təsiri ilə daha mütərəqqi iqtisadi münasibətlər sistemi formalaşdırmaqdan ibarətdir. Bu baxımdan cəmiyyətin tərəqqisinin əsası kimi çıxış edən iqtisadi sistemin modernləşdirməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz durmadan modernləşən, bütün mövcud strukturları dövrün tələblərinə uyğun şəkildə dəyişdirməyi bacaran dövlətlər sosial-iqtisadi baxımdan yüksək inkişaf etmiş dövlətlər kateqoriyasına aid edilir. Bu isə davamlı iqtisadi inkişaf üçün möhkəm və dayanıqlı zəmin yaradır.

Latın mənşəli söz olan modernləşmə (yeni, müasir) insan həyatının hər hansı sahəsində zamanın tələblərinə uyğun şəkildə həyata keçirilən, iqtisadi, siyasi, elmi texniki və sair yönümlü yeniləşdirmə aktları ilə bağlı olan anlayışı ifadə edir. O, bialvasitə məqsədli, davamlı, nizamlı və sistemli kimi başlıca əlamətləri və keyfiyyətləri ilə seçilir. Modernləşdirmənin əsas və son məqsədi texniki, ideoloji və mənəvi baxımdan köhnəlmiş və istifadə üçün yararlı olmayan obyektin, yaxud bötöv sistemin yeni, proqressiv tələblərə uyğun şəkildə yeniləşdirilməsini nəzərdə tutur.

İqtisadi ədəbiyyatlarda "modernləşdirmə" əsas etibarı ilə sosial-iqtisadi zərurət qismində təzahür edən, əsasən sistemli şəkildə həyata keçirilən, praktiki cəhətdən texniki resursların və onlarla əlaqəli olan mövcud sistemin dəyişdirilməsi ilə bağlı olan bir proses kimi xarakterizə olunur. Məhz bu baxımdan o, sırf tətbiqi xarakter daşıyır. Digər hallarda isə modernləşdirmə aydın ifadə olunan nəzəri məzmun kəsb edir. Qlobal cəmiyyətin ümumi mahiyyətinin dəyişdirilməsi ilə bağlı olan, xüsusilə bir ictimai-iqtisadi münasibətlər sistemindən digərinə keçid zamanı zərurət

kimi ortaya çıxan modernləşdirmə, ənənəvi cəmiyyətlərin modern cəmiyyətlərə keçidin bütöv makroprosesi çərçivəsində təzahür edir.

Tanınmış Rusiyalı alim Sergey Nazipoviç Qavrov (1964) müasir dövrün sosial-iqtisadi və ictimai-mədəni problemlərinə həsr etdiyi elmi işlərində modernləşdirməni "insan həyatının proqressiv məzmununu və başlıca həyati motivlərini tərənnüm edən obyektiv hadisə" kimi qiymətləndirir[1]. Nəzəri cəhətdən onun əsas məzmunu və məqsədi "bəşəri ideal" modelinin yaradılmasına nail olmaqdan ibarətdir.

Hazırda modernləşmə anlayışı, mahiyyət etibarilə, modernləşmənin sosioloji nəzəriyyələrinin məcmusu deməkdir. Azərbaycan iqtisadçılarından Vüsal Qasımlı qeyd edir ki, *"modernizasiya prosesi innovativ inkişaf etmədən mümkün deyil. Çünki modernləmə özlüyündə yeniliklərin – innovasiyaların tətbiqini ehtiva edir"*[2].

İsa Alıyev və başqaları öz araşdırmalarında göstərlər ki, *"-modernləşmə hər bir ölkədə özünü müxtəlif şəkildə göstərir. Bu isə ondan irəli gəlir ki, ayrı-ayrı ölkələr bu və ya digər şəkildə ənənəvi milli mədəniyyətə və fərqli etik normalara əsaslanır. Eyni zamanda, modernləşmə dəyişikliklərin baş verməsini tələb etsə də, onlardan tam imtina olunmasını tələb etmir"*[3].

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, iqtisadi sahədə hər hansı yeniliklərin həyata keçirilməsi zamanı dünya təcrübəsinə istinad edilməsi və mövcud modellər içərisindən yerli xüsusiyyətlərə daha çox uyğun gələninin seçilməsi mühüm əhəmiyyət kəsb edir. Bu zaman əsas nümunə kimi qəbul edilən məkanın təbii-coğrafi xüsusiyyətlərini, iqlim şəraitini, əmək resurslarını, elmi, intellektual və texniki səviyyəsini nəzərə almaq vacibdir. Bundan sonra təklif edilən iqtisadi məkanlar içərisindən

---

[1].Гавров С.Н. Модернизация. Социокультурная антропология: история, теория, методология. Энциклопедичес-кий словарь. - М:, Академический проект: Константа, 2012. - С. 821-830.
[2].Qasımlı V.Ə. İqtisadi modernizasiya. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2014, 311 s., 83, 312-316
[3].Alıyev İ.H., Hüseynov S.Y., Əsədov A.M. // Milli iqtisadiyyat və davamlı inkişaf // Bakı:Avropa, 2012, 475 s., s. 61-63

ölkə təsərrüfatının xüsusiyyətlərinə daha çox uyğun olanının seçilməsi məqsədəuyğun hesab edilir.

Beynəlxalq təcürbəyə əsaslanaraq Avropada, ABŞ-da, Danimarkada, Türkiyədə və texnoloji baxımdan çox yüksək inkişaf səviyyəsinə çatmış bəzi Asiya ölkələrində (Cənubi Koreya, Çin, Yaponiya və s.) istehsal edilmiş texniki nümunələr, bir qayda olaraq, standart landşaft, iqlim şəraiti və artıq yüksək həddə innovasiya imkanları olan iqtisadi məkanlar üçün nəzərdə tutulmuşdur.

Beləliklə, irəli sürülən müddəalardan məlum olur ki, iqtisadi modernləşdirmə, o cümlədən aqrar sahənin sistemli şəkildə yeniləşdirilməsi, faktiki olaraq iqtisadi sistemin yüksək texnologiyalara əsaslanan aktiv və intensiv inkişafı, iqtisadi fəaliyyətin iştirakçılarının və onların çalışdığı sektorların daim yüksələn ixtisaslaşması, həmçinin əsas bazarların miqyasının və aktivliyinin artması ilə müəyyən olunur. Qərbin innovasiya nailiyyətlərinin konkret bir sahədə, o cümlədən aqrar sektorda tətbiq olunmasını modernləşdirmə kimi təzahür edən yüksək təşəkküllü qlobal prosesin çeşidli istiqamətlərindən biri kimi qəbul etmək lazımdır.

**Müddəa 2. Kənd təsərrüfatı sistemində elmi araşdırmalara sərf edilən xərclər artırılmalı, təhsil, elmi müəssisələr və aqrar istehsal sahələri arasındakı qarşılıqlı münasibətlər genişləndirilməlidir.**

Modernləşdirmənin kənd təsərrüfatında istehsal prosesinin iqtisadi səmərəliliyinin artırılmasında həlledici roluna dair xarici və ölkə alimlərinin kifayət qədər sanballı tədqiqat işləri mövcuddur. Qeyd etmək lazımdır ki, "səmərəlilik" anlayışı geniş mənada klassik siyasi iqtisad elminin banilərindən biri sayılan Vilyam Pettinin (1623-1687)[4] [4], bundan sonra isə fiziokratlar məktəbinin banisi Fransua Kenenin (1694-1774) ideyalarında[5] [5] və elmi əsərlərində

[4] Энциклопедия 'Кругосвет' (http://www.krugosvet.ru/)

[5] Блауг М., Кенэ Франсуа //100 великих экономистов до Кейнса=Great Economists before Keynes: An introduction to the lives & works of one hundred great economists of the past. - СПб.: Экономикус, 2008- С.128-130-352 с.

öz əksini tapmışdır. Lakin onlar həmin anlayışdan ümumi iqtisadi həyatın dirçəlişi və inkişafı ilə bağlı tədbirləri və onların nəticələrini ifadə etmək üçün istifadə etmişlər. Sonralar bu anlayışdan tanınmış ingilis iqtisadçısı, klassik siyasi iqtisad elminin banilərindən biri sayılan Devid Rikardo (1772-1823) istifadə etmişdir və o, həmin terminə daha konkret və spesifik məzmun əlavə edərək onu iqtisadi sferada, o cümlədən kənd təsərrüfatı sektorunda əldə olunan nəticələrlə çəkilmiş xərclərin nisbəti kimi qiymətləndirmişdir [6][6].

Dünya təcürbəsi göstərir ki, iqtisadiyyatın aqrar sektorunun müasir dövrün tələblərinə uyğun şəkildə, elmi, texniki, texnoloji, logistik və kommunikasiya baxımdan davamlı şəkildə modernləşdirilməsi ilk mərhələdən etibarən bu sahəyə qoyulan sərmayələrin durmadan artırılmasını tələb edir.

Hazırda dünya təsərrüftında, o cümlədən iqtisadiyyatın aqrar sektorunda belə bir fikir formalaşmışdır ki, kənd təsərrüfatında modernləşdirmə ilə bağlı istehsalın səmərəliliyini müəyyən etmək və qiymətləndirmək üçün ümumiləşdirilmiş iqtisadi səmərəlilik göstəricisi istehsalın bütün nəticələrini - istehsalın həcmini, məhsulun keyfiyyətini, istehsal vahidinə sərf olunmuş xərcləri əks etdirməli və bütün bunlar son nəticədə pul formasında ifadə olunmalıdır. Bu onu göstərir ki, aqrar sektorda davamlı olaraq həyata keçirilən modernləşdirmə tədbirlərinin istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsində rolunu müəyyən etmək üçün səmərəliliyin bütün göstəricilərinin ümumi sistemindən istifadə etmək zəruridir.

Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən müvafiq aqraryönümlü sahə institutlarının potensialından istifadəyə xüsusi önəm verilir. Aqrar sahənin prioritet inkişaf istiqamətlərinə uyğun olaraq modernləşdirməni beynəlxalq təcrübəyə uyğun şəkildə təkmilləşdirilməklə və uyğun islahatları daha da intensivləşdirməklə qısa vaxtda yeni inkişaf mərhələsinə keçməyi təmin etmək mümkündür.

---

6 Бём-Баверк, Ойген фон. Капитал и процент, 1884-1889. Глава VI. Бесцветные теории // Избранные труды о ценности, проценте и капитале. - М.: Эксмо, 2009. - С. 345-353. - 912 с.

Aqrar sektorun modernləşdirilməsinin elmi-texniki mahiyyətini əks etdirən texnoloji səmərəlilik istehsal prosesində elmi-texniki innovasiya imkanlarından istifadə edilməsinin həddini və səviyyəsini xarakterizə edir. Burada başlıca meyar kənd təsərrüfatının elmi cəhətdən əsaslandırılmış müasir qaydalara uyğun şəkildə təşkil edilməsindən və idarə olunmasından ibarətdir. Bu sahədə modernləşdirmə siyasəti ilə bağlı sosial səmərəlilik kəndin sosial inkişaf tendensiyalarının normativ səviyyəsini, eyni zamanda əhalinin və hər bir şəxsin sosial rifah səviyyəsini müəyyən edir.

Araşdırmalardan məlum olur ki, aqrar sahədə modernləşdirmə tədbirlərinin yüksək təşəkküllü, ilk növbədə istehsal prosesində tətbiq olunan resursların səmərəliliyinin durmadan artırılmasına və bu proses üzərində ciddi nəzarət sisteminin yaradılmasına yönəlir. Belə tədbirlərə modernləşdirilmiş üsullarla torpaqların becərilməsi, davamlı olaraq adekvat (ixtisaslı) əmək ehtiyatlarının yaradılması, mövcud enerji ehtiyyatlarının daim təkmilləşdirilməsi, maliyyə dəstəyinin gücləndirilməsi və müvafiq zəruri iqtisadi-hüquqi mühitin yaradılması aiddir.

Dünya təcürbəsi göstərir ki, iqtisadiyyatın aqrar sektorunun müasir dövrün tələblərinə uyğun şəkildə, elmi, texniki, texnoloji, logistik və kommunikasiya baxımdan davamlı şəkildə modernləşdirilməsi ilk mərhələdən etibarən bu sahəyə qoyulan sərmayələrin durmadan artırılmasını tələb edir. *Beləliklə, ölkədə məqsədyönlü və müasir dövrün iqtisadi tələblərinə cavab verən investisiya siyasəti olmadan aqrar sektorda yüksək təşəkküllü və davamlı modernləşdirmə tədbirlərini həyata keçirmək, eləcə də istehsalın iqtisadi səmərəliliyinin daim yüksəldilməsi ilə bağlı gözlənilən müsbət nəticələrə nail omaq mümkün deyil*[7].

---

[7].Qasımlı V.Ə. İqtisadi modernizasiya. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2014, 311 s., 83, 312-316

**Müddəa 3. Aqrar sahədə dayanıqlı inkişafı təmin etmək, optimal qərarlar qəbul etmək, mümkün riskləri azaltmaq və çevik menecment sistemi yaradılmalı, sahədə elmi tədqiqatların aparılmasına dövlətin dəstəyi gücləndirilməli, tədqiqat işləri stimullaşdırılmalı və bu məqsədlə xüsusi proqramlar işlənib həyata keçirilməlidir.**

Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşmış ölkə iqtisadiyyatının təsərrüfat-iqtisadi həyatında aqrar sektorun rolu və əhəmiyyəti həmişə böyük və həlledici olmuşdur. Həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissələrindən biri də Azərbaycanda regionların bərabərsəviyyəli inkişafına nail olunmasından ibarətdir. Respublikamız bu sahədə öz mövcud potensialını artırmaqla və dünyanın çoxçeşidli kənd təsərrüfatı məhsulları ixrac edən ən vacib subyektlərindən birinə çevrilməklə dünya iqtisadi sisteminə inteqrasiyanı əhəmiyyətli şəkildə reallaşdırmaqdadır. Bunu, ölkəmizin perspektiv inkişaf konsepsiyası da tələb etməkdədir. Belə ki, regionda digər ökələrdən tamamilə fərqli olan spesifik iqlim şəraiti və münbit təbii-coğrafi şərait kənd təsərrüfatı məhsullarının istehsalı üçün münbit imkanlar yaradır. Neft sektorundan və sənayenin digər inkişaf etmiş sahələrindən gələn gəlirlərin xüsusi dövlət proqramları əsasında kənd təsərrüfatının modernləşdirilməsinə və davamlı inkişafına cəlb edilməsi mühüm stimullaşdırıcı amilə çevrilir.

Bu isə bazar iqtisadiyyatına keçid dövrünü yaşayan, keçmiş strukturlar və infrastrukturlar üzərində innovasiya texnologiyalarına əsaslanan yenilərini quran, uzun müddət müharibə şəraitində yaşamış, 1 milyondan artıq qaçqını olmuş ölkəmizin kənd təsərrüfatı sektorunda əkinçilik və maldarlıq sahələri üzrə real və potensial imkanları olan torpaqlarının 30 ilə yaxın işğal altında olması təbii ki, öz mənfi təsirini kənd təsərrüfatına göstərmişdir.

Aşağıdakı diaqramda iqtisadiyyatın sahələri üzrə ümumi daxili məhsulda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə xüsusi çəkisinə nəzər salsaq görərik ki, 2000-ci ildə aqrar sahə üzrə ümumi daxili məhsul 758,9 milyon manat, 2005-ci ildə 1137,9 milyon manat, 2010-cu ildə 2344,6 milyon manat, 2015-ci ildə 3359,4 milyon manat, 2020-ci ildə 5016,4 milyon manat təşkil etmiş, 2000-

ci ilə nisbətən 2005-ci ildə 1,7 dəfə artım, 2010-cu ildə isə 1,6 dəfə azalma baş versə də 2015-ci ildə ölkədə kənd təsərrüfatı ili elan olunduğu il yenidən 1,1 dəfə artım baş vermiş, lakin növbəti illərdə yenidən azalmalar baş vermişdir. 2020-ci ildə artım müşahidə olnsa da, diaqramdan da göründüyü kimi növbəti illərdə yenidən azalmanın şahidiyik. 2000-ci ilə nisbətən 2022-ci ildə aqrar sahənin ümumi daxili məhsulda xüsusi çəkisi 3,6 dəfə azalmışdır (Diaqram 1). Qeyd etmək lazımdır ki, SSRİ dönəmində Aran Qarabağ ən məhsuldar bölgə idi. Ümidvaram ki, işğaldan azad olmuş torpaqlarımız sayəsində ÜDM-də kənd təsərrüfatının payı dəfələrlə yüksələcəkdir.

**Diaqram 1**




**Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.stat.gov.az/source/agriculture/**

Araşdırmalar göstərir ki, həyata keçirilən tədbirlər, xüsusilə müvafiq dövlət proqramları, strateji yol xəritələri və stimullaşdırıcı qərarlar aqrar istehsala öz müsbət təsirini əhəmiyyətli şəkildə göstərmişdir. Yəni kənd təsərrüfatı məhsullarının dinamikasına diqqət yetirdikdə görürük ki, buradakı göstəricilərə əsasən son illərdə - 2016-2022-ci illərdə 2 dəfə artım müşahidə olunmuşdur. 2016-2022-ci illə bitkiçilikdə artım 2,1 dəfə, heyvandarlıqda isə 78 faiz artım müşahidə olunmuşdur. Ümumi məhsulun strukturunun

təhlilindən aydın olur ki, tədqiqatın aparıldığı illərdə bitkiçiliyin xüsusi çəkisi heyvandarlığı üstələmişdir. Bitkiçiliyin ümumi məhsuldakı payının ən yüksək səviyyəsi 2022-ci ildə 50,4%, heyvandarlıqda isə əksinə 49,6% aşağı göstərici ilə nəticələnmişdir (cədvəl 1).

**Cədvəl 1**

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu**

| İllər | Cəmi, milyon manat | o cümlədən | | xüsusi çəkisi | |
|---|---|---|---|---|---|
| | | bitkiçilik məhsulları, milyon manat | heyvandarlıq məhsulları, milyon manat | Bitkiçi-lik məhsul-ları, fazilə | heyvandarlıq məhsulları, faizlə |
| 2016 | 5632,4 | 2577,2 | 3055,2 | 45,8 | 54,2 |
| 2017 | 6580,0 | 3019,0 | 3561,0 | 45,9 | 54,1 |
| 2018 | 7010,0 | 3186,0 | 3824,0 | 45,4 | 54,6 |
| 2019 | 7836,7 | 3751,2 | 4085,5 | 47,9 | 52,1 |
| 2020 | 8428,9 | 4028,4 | 4400,5 | 47,8 | 52,2 |
| 2021 | 9163,4 | 4511,0 | 4652,4 | 49,2 | 50,8 |
| 2022 | 10984,2 | 5538,0 | 5446,2 | 50,4 | 49,6 |
| 2016-cı ilə nisbətən 2022-ci ildə, %-lə | 2,0 dəfə | 2,1 dəfə | 178 % | X | X |

**Mənbə: DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.stat.gov.az/source/agriculture/.**

Təhlil göstərir ki, son illərdə respublikamızda kənd təsərrüfatının texnika ilə təminatı ilə bağlı müəyyən müsbət dəyişikliklər baş vermişdir. Belə ki, 2015-2022-ci illərdə hər 1000 ha əkinə düşən traktorların sayında hər il əvvəlki ilə nisbətən artım müşahidə edilərək, 2022-ci ildə 2015-ci ilə nisbətən 3 dəfə artım qeydə alınmışdır. Bir traktora düşən əkin göstəricisi üzrə də müsbət dəyişikliyi görmək mümkündür, belə ki, 2015-ci illə müqayisədə 2022-ci ildə 3 dəfə azalma müşahidə olunmuşdur.




**Diaqram 2.2. Kənd təsərrüfatının texnika ilə təminatı, ədədlə.**
**Mənbə: DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.stat.gov.az/source/agriculture/**

İqtisadi səmərəliliyin mühüm göstəricisi kimi kənd təsərrüfatı məhsullarının istehsalı üçün müxtəlif texnologiyaları müqayisə etmək də əsas meyarlardan hesab olunur. Başqa sözlə, istehsalın iqtisadi səmərəliliyinin və ya üstünlüyünün müəyyən edilməsi alınan nəticənin ölçüsü ilə xarakterizə olunur.

Qeyd edilənlərə əsaslanaraq kənd təsərrüfatı istehsalının iqtisadi səmərəlilik göstəricilərinə nəzər saldıqda məlum olur ki, müqayisənin aparıldığı illərdə ümumilikdə artım baş vermişdir. Belə ki, 2010-cu ilə nisbətən 2022-ci ildə kənd təsərrüfatına yararlı torpaq sahəsi 13,7 min ha, yaxud 0,3 faiz, əkin yeri və çoxillik əkmələrin cəmi sahəsi 256,3 min ha, yaxud 12,4 faiz, kənd təsərrüfatının ümumi məhsulu 7106,5 milyon manat, yaxud 2,8 dəfə, o cümlədən bitkiçilik sahəsində 3538,8 milyon manat, yaxud 2,8 dəfə, heyvandarlıq sahəsində isə 3567,7 milyon manat, yaxud 2,9 dəfə artmışdır. İstehsalın iqtisadi səmərəliliyini xarakterizə edən ən mühüm göstəricilərdən biri mənfəətdir. Kənd təsərrüfatının iqtisadi səmərəlilik göstəricisinə nəzər saldıqda məlum olur ki,

2010-cu illə müqayisədə bütün illərdə əhəmiyyətli artım baş vermişdir. 2022-ci ildə 1 ha kənd təsərrüfatına yararlı torpaq sahəsinə düşən ümumi məhsulda 1484,2 milyon manat, yaxud 2,8 dəfə artım müşahidə edilmişdir. Rentabellik səviyyəsi isə bitkiçilikdə heyvandarlığa nisbətən daha yüksək nəticələr əldə edildiyi məlum olur. Belə ki, bitkiçilikdə ən aşağı səviyyə 2017-ci ildə 25,5% olduğu halda, heyvandarlıqda 2019-cu ildə 3,4% rentabellik qeydə alınmışdır. Ən yüksək nəticə bitkiçilikdə 2022-ci ildə 51,9%, heyvandarlıqda isə elə həmin ildə 23,6% səviyyədə olmuşdur.

İqtisadiyyatın əsas sektoru olan aqrar sahənin innovativ inkişafı və modernləşmə kimi strateji hədəflərin həyata keçirilməsində əsas rol dövlətə məxsus olmalıdır. Çünki iqtisadi inteqrasiyanın şaxələndiyi bir vaxtda aqrar sektorun modernləşdirilməsində dövlətin dəstəyi xüsusi əhəmiyyət daşıyır[8]. Dövlətin dəstəyilə modernləşdirmənin şaxələndirilməsinə və inkişafına yönəldilmiş lazımi tədbirlər bu sahədə istehsal olunan məhsulların azalmasının və məhsuldarlığın enmə səbəblərinin qarşısının alınmasına nail olunması məqsədini daşıyır.

İqtisadçı alim Vüsal Qasımlı aqrar modernləşmə sahəsində xarici təcrübənin aktuallığını tədqiq edərək kənd təsərrüfatında modernizasiyanın rolunu qiymətləndirərkən qeyd etmişdir ki, "kənd təsərrüfatında məhsuldarlığın artırılmasını təmin edə biləcək şərtlərdən biri də daha yeni modern fondlara və daha yüksək ixtisaslı əmək resurslarına investisiya qoyuluşu xüsusi əhəmiyyət kəsb edir. Belə ki, aqrar sahədə istehsalın səmərəliliyinin artırılmasına, modernləşdirmənin təsiri eyni zamanda özünü daha başqa amillərdən, yəni təsərrüfatda kompleslik, alternativlik və qarşıya çıxa biləcək risklərdən sığortalanma kimi olduqca vacib baza prinsiplərinin reallaşdırılmasını təmin edə bilər"[9].

Ölkəmizdə son dövrlərdə müvafiq dövlət proqramlarının,

[8] Məmmədli Y.Z. Aqrar sahənin modernləşdirilməsində dövlətin dəstək və stimullaşdırıcı tədbirlərinin prioritetləri. Elmi jurnal, Cild 1, №2, Mingəçevir: - 2021, s. 22-28.
[9] Qasımlı V.Ə. İqtisadi modernizasiya. Bakı: 2014, 311 s., 83, 312-316

strateji yol xəritələrinin, strateji inkişaf konsepsiyalarının qəbul edilməsini xüsusi qeyd etmək olar. Bu sənədlərdə xüsusilə "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda istehsalın modernləşdirilməsi istiqamətində daha çox aşağıdakı vəzifələr müəyyən edilmişdir[10]:

- texniki və texnoloji mexanizm və avadanlıqlardan istifadə nəticəsində iqtisadi potensialın genişləndirilməsi və tam şəkildə döriyyəyə cəlb edilməsi;
- ekoloji çirklənmənin qarşısının alınması, regionların mövcud təbii resurslarından daha səmərəli və məqsədəuyğun istifadə edilməsi;
- regionlarda "yaşıl enerji" prinsipinə əsaslanan ekoloji baxımdan bərpa oluna biləcək enerji mənbələrindən daha geniş istifadənin tətbiq edilməsi;
- əkin sahələrinin suvarılmasında yeni texnoloji avadanlıqlardan istifadə etməklə suvarma sularına qənaət edilməsi;
- kəndin infrastrukturunun, o cümlədən sosial, istehsal və bazar infrastrukturunun modernləşdirilməsinə dövlət dəstəyi;
- ölkənin ərzaq təhlükəsizliyini təmin edən əsas ərzaq məhsulları ilə özünütəminetmə dərəcəsinin daha da yüksəldilməsi və sair.

**Müddəa 4. Aqrar sektorun səmərəli inkişafını təmin etmək üçün bu sahədə çalışan kiçik və orta biznesin maliyyə əlçatanlığı və uzunmüddətli güzətli kreditlərin verilməsi təmin edilməli, sahənin innovativ inkişafına investisiya qoyuluşu stimullaşdırılmalıdır.**

Aqrar sahənin modernləşdirilməsi siyasətinin reallaşdırılması istiqamətləri ilk növbədə kənd təsərrüfatında istehsal prosesinin innovasiyalı təşkilinə, elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsala tətbiqinin genişləndirilməsinə əsaslanır. Bu baxımdan aqrar sahədə innovasiyaların mənimsənilməsi

---

[10] Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cü il tarixli Sərəncamı

sisteminin formalaşması hazırda ən mühüm məsələlərdən hesab edilir. Artıq dünyanın əksər ölkələrində innovasiyalı kənd təsərrüfatı istehsalının qurulması istiqamətində zəruri tədbirlər həyata keçirilməkdədir. Bunun nəticəsidir ki, müasir şəraitdə yeni elmi biliklər və innovasiyalar kənd təsərrüfatı istehsalının və bütövlükdə aqrar sahənin inkişafının əsas elementlərinə çevrilməkdədir.

Aqrar sahədə innovasiyaların tətbiqinin səmərəliliyində dövlət dəstəyi xüsusi önəm kəsb edir. Bu sferada dövlət dəstəyinin əsas amalı müasir texnologiyaların, yerli resusrslardan səmərəli istifadəyə istiqamətlənmiş innovasiyaların mənimsənilməsinə və geniş şəkildə tətbiqinə istiqamətlənmiş innovasiya siyasəti olmalıdır. Aqrar istehsalın mənbəyini regional bölgələrimiz əhatə etdiyi üçün regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun məqsədli innovasiya proqramlarına uyğun istehsal fəaliyyətinin həyata keçirilməsi özünəməxsus sosial-iqtisadi əhəmiyyət daşıyır. İnnovasiya proqramlarında dövlətin iqtisadi-təşkilati siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

- innovativ əsaslarda təsərrüfatçılıq subyektlərinin yaradılması[11];

-innovativ təsərrüfatçılıq subyektlərinin inkişafının stimullaşdırılması və dəstəklənməsi mexanizmlərinin daha da təkmilləşdirilməsi [12];

- aqrar təsərrüfat sektoru ilə sənaye təsərrüfatı sektorunun inteqrasiya əsasında inkişafına dövlət dəstəyinin gücləndirilməsi;

- regionlarda, xüsusilə aqrar sektorda investisiya-innovasiya fəaliyyətinin stimullaşdırılması tədbirlərinin artırılması;

- ölkənin ərzaq təhlükəsizliyini təmin edən ərzaq məhsullarının istehsalına dövlət dəstəyi[13];

- ixracyönümlü məhsulların istehsalında innovasiyaların

---

[11] Azərbaycan Respublikasnda kənd təsərrüfatı məhsullarının istehsalna və emalna dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərnanı

[12] Yenə orada.

[13] Yenə orada.

tətbiqinin stimullaşdırılması və sair.

Aqrar sferanın modernləşdirilməsi istiqamətlərindən biri də emal sektorunun yenidən qurulması və müasir texnologiyalara uyğun modernləşdirilməsidir.

Kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiyaların artım dinamikasına aşağıdakı cədvəldə nəzər yetirsək görərik ki, 2010-cu ilə nisbətən 2015-ci ildə 61,0 faiz artım, 2016-cı ilə nisbətən 2017-ci ildə 10,5 faiz artım, 2018-ci ilə nisbətən 2019-cu ildə 7,5 faiz artım müşahidə olunsa da, 2015-ci ilə nisbətən 2016-cı ildə 1,2 faiz azalma, 2017-ci ilə nisbətən 2018-ci ildə 1,1 faiz azalma, 2019-cu ilə nisbətən 2020-ci ildə 7,1 faiz azalma, 2020-ci ilə nisbətən 2021-ci ildə 2,4 faiz azalma müşahidə olunmuşdur. Müsbət hal olaraq 2022-ci ildə 2021-ci ilə nisbətən yenidən 6,3 faiz artımla nəticələnmişdir. 2010-cu ilə nisbətən 2015-ci ildə kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiyanın 75,6 milyon manat, 2015-ci ilə nisbətən 2016-cı ildə 30,3 milyon manat azalması müşahidə olunsa da, 2016-cı ilə nisbətən 2017-ci ildə 292,7 milyon manat, 2017-ci ilə nisbətən 2018-ci ildə 146,6 milyon manat, 2018-ci ilə nisbətən 2019-cu ildə 5,1 milyon manat artım baş vermiş, lakin 2019-cu ilə nisbətən 2020-ci ildə yenidən 248,9 milyon manat, 2020-ci ilə nisbətən 2021-ci ildə 178,7 milyon manat, 2021-ci ilə nisbətən 2022-ci ildə isə 66,1 milyon manat azalma ilə nəticələnmişdir. Bununla da cəmi kapital qoyuluşunda kənd təsərrüfatının xüsusi çəkisinin artıb azalmasında da bir sıra uyğunsuzluqlara rast gəlinmişdir. Belə ki, 2010-cu illə müqayisədə 2015-ci ildə kənd təsərrüfatının xüsusi çəkisi 2 dəfə artsa da növbəti illərdə yenidən artıb azalmalar baş vermiş, o cümlədən 2010-cu ilə nisbətən 2022-ci ildə 52,3 faiz azalma ilə nəticələnib (Cədvəl 2).

**Cədvəl 2.**

**Kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiyalar**

| İllər | Cəmi | Artım dinamikasi, faizlə | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (milyon manat) | Cəmi kapital qoyuluşunda kənd təsərrüfatının xüsusi çəkisi, faizlə |
|---|---|---|---|---|
| 2010 | 9905,7 | 100,0 | 431,0 | 4,4 |
| 2015 | 15957,0 | 161,0 | 355,4 | 2,2 |
| 2016 | 15772,8 | 98,8 | 325,1 | 2,1 |
| 2017 | 17430,3 | 110,5 | 617,8 | 3,5 |
| 2018 | 17244,9 | 98,9 | 764,4 | 4,4 |
| 2019 | 18539,5 | 107,5 | 769,5 | 4,2 |
| 2020 | 17226,1 | 92,9 | 520,6 | 3,0 |
| 2021 | 16815,5 | 97,6 | 341,9 | 2,0 |
| 2022 | 17878,2 | 106,3 | 408,0 | 2,3 |

**Mənbə: DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.stat.gov.az/source/agriculture/**

Araşdırmalar göstərir ki, son illərdə kənd təsərrüfatına yönəldilən investisiyalarla onun ümumi məhsulunun dəyişmə meyli arasındakı müqayisələrə nəzər yetirsək əvvəlki illərə nisbətən bir o qədər də uyğunsuzluqlara rast gəlinmədiyini görərik. Belə ki, 2016-cı ildə 2015-ci ilə nisbətən investisiya yatırımında 62,2 faiz azalma və ümumi məhsulda 9,1 faiz artım, 2017-ci ildə 2016-cı ilə nisbətən investisiyada 11,7 faiz artım və ümumi məhsulda da 98,5 faiz artım, 2017-ci ilə nisbətən 2018-ci ildə investisiyada 11,6 faiz azalma və ümumi məhsulda da 66,3 faiz azalma, 2018-ci ilə nisbətən 2019-cu ildə investisiyada 14,6 faiz azalma və ümumi məhsulda da 10,0 faiz azalma, 2020-ci ilə nisbətən 2021-ci ildə investisiyada 4,7 faiz artım və ümumi məhsulda 2,0 faiz azalma, 2021-ci ilə nisbətən 2022-ci ildə isə investisiyada 8,7 faiz artım və ümumi məhsulda da 53,6 faiz artım müşahidə olunmuşdur (Diaqram 3).




**Diaqram 3.Aqrar sahəyə yönəldilmiş investisiyaların və ümumi məhsulun dinamikası.**

**Mənbə: DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.stat.gov.az/source/agriculture/**

**Müddəa 5. Aqrar sektorun rəqabətqabiliyyətliliyi aşağı səviyyədədir. Aqrar sektor məhsulunun innovativ keyfiyyətinin yaxşılaşdırılması, itkilərin, istehsal xərclərinin aşağı salınması istiqamətində tədbirlər sistemi işlənib həyata keçirilməlidir.**

Aqrar sahənin səmərəliliyi dövrümüzün ən aktual məsələlərindəndir. Belə ki, bu sahədə rəqabətin düzgün formalaşması, inhisarçılıq norması kimi bəzi məslələrin doğru tətbiq olunması daim nəzarət altında olmalıdır. Aqrar sektorun dünya səviyyəsində kənardan necə göründüyü və bu günün tələblərinə uyğun olaraq biz bu sahədən nələri gözləyirik. Burada daxili və xarici bazara çıxış, Ümumdünya Ticarət Təşkilatına qoşulma və digər bu kimi məsələləri diqqət mərkəzində saxlamalıyıq.

Günümüzün tələblərinə uyğun olaraq aqrar sektorda geniş təkrar istehsalın, investisiya yatırımının, səhmdar cəmiyyətlərin müasir şəraitə uyğun qurulması, bank xidmətləri ilə əlaqələrin möhkəmliyi, hansı maliyyə mənbələrinin və necə həyata keçirilməsi

qarşıya qoyulmuş ən mühüm məsələlərdəndir.

Aqrar sferada istehsalın iqtisadi səmərəliliyinə bu sahənin spesifik xüsusiyyətlərindən asılı olaraq müxtəlif amillər təsir edir (Sxem 1). Aqrar sahənin inkişafında iqtisadi səmərəliliyi şərtlərindən amillərlərdən ən vacibi iqtisadi amillərdir ki, buraya torpaq, su, maddi və texniki resurslar, texnoloji avadanlıqlar və sairəni aid etmək olar. Bu ehtiyatlardan kompleks şəkildə istifadə nəticəsində səmərəliliyin artımına nail olmaq mümkündür. Bu onu göstərir ki, kənd təsərrüfatının inkişaf səviyyəsi və səmərəliliyi iqtisadi mexanizmin ünsürləri ilə tənzimlənir.




**Sxem 1. Aqrar sahədə iqtisadi səmərəliliyə təsir edən amillər. Mənbə: İslam İbrahimov "Aqrar sahənin iqtisadiyyatı", Dərslik, Bakı-2016 [42, s.539][14].**

Aqrar sahədə iqtisadi səmərəliliyin yüksəldilməsində istehsal prosesində itkilərin azaldılması və keyfiyyətin yüksəldilməsi xüsusi yer tutur. Burada da texniki və texnoloji avadanlıqlardan yerində

---

[14] İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı, 2016, s.539

istifadə etmək tələb olunur. Hər hansı mərhələnin pozulması, vaxt itkisi əlavə xərclərin əmələ gəlməsinə gətirib çıxarır. Belə ki, yay mövsümündə məhsulun saxlanmasında və daşınmasında soyuducu maşınların, qış mövsümündə isə donvurmanın qarşısını almaq məqsədilə xüsusi tədbirlərin görülməsi vacib şərtdir.

Bütövlükdə ölkənin aqrar - sənaye kompleksi miqyasında isə vertikal inteqrasiyanın kənd təsərrüfatı istehsalının modernləşdirilməsinə təsir potensialı bu prosesin hələlik bir çox əsas bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı, emalı və satışını əhatə etməməsi, bütün hallarda səmərəli inteqrasiya formaları və mexanizmlərinin qurulmasına nail olunmaması ilə əlaqədar, tam şəkildə reallaşdırılmamış qalır.

İstehsalın iqtisadi səmərəliliyinin yüksəldilmisinin başlıca şərtlərindən ən əsası da kənd təsərrüfatında məhsulun istehsalına çəkilən xərclərin azaldılmasıdır. İstehsal xərcləri məhsul istehsalına çəkilən canlı və maddiləşmiş əmək məsrəflərindən ibarətdir. Kənd təsərrüfatında məhsuldar və qeyri-məhsuldar xərclər mövcuddur. Birbaşa məhsul istehsalına aid edilən xərclər məhsuldar xərclərə, ümum istehsal və ümumtəsərrüfat xərclər isə qeyri-məhsuldar xərclərə aiddir. Bir sözlə, bu xərclər xidməti xərclər olaraq məhsulun maya dəyərinə daxil edilir.

Beləliklə, aparılan tədqiqatlar və araşdırmalar göstərir ki, kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsində mühüm rol oynayan modernləşmə prosesi istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Modernləşdirmə şəraitində istehsalın səmərəliliyinin və xüsusən də kənd təsərrüfatının ayrı-ayrı sahələrində effektivliyin təmin edilməsi dövlətin aqrar siyasətinin prioritetlərindən biri kimi ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında strateji əhəmiyyət kəsb edir. Kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin araşdırılması və təhlili ölkədə inkişaf etmiş aqrar bazar münasibətlərinin formalaşmasına və onun strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə təsir göstərən əsas amil kimi gələcək tədqiqatlarda inkişaf etdirilməsinə ehtiyac duyulur.

**Dissertasiyada aparılan tədqiqat üzrə aşağıdakı nəticələr əldə edilmiş və təkliflər irəli sürülmüşdür:**

1. Araşdırmalar göstərir ki, aqrar sahənin iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün modernləşdirmə tədbirləri sistemli olaraq genişləndirilməli, sahənin innovativ inkişafı təmin edilməlidir. Aqrar sektorda innovatv texnologiyalardan, müasir menecment sistemindən istifadə edilməsi əmək məhsuldarlığının artmasını təmin edər, onun rəqabətqabiliyyətliyini yüksəldər və sahənin effektiv inkişafını təmin edər.

2. İnnovativ inkişaf kənd təsərrüfatı istehsalında bir sıra vəzifələrin həllini həyata keçirir: elmi və texniki tərəqqinin tətbiqi; kənd təsərrüfatı elminə sərf edilən xərclərin quruluşunda mütərəqqi elmi-tədqiqatlara çəkilən xərclərin nisbətinin artırılması; təhsil, elmi müəssisələr və aqrar istehsal özəkləri arasındakı qarşılıqlı münasibətlərin genişləndirilməsi və sair. Bu məsələlər modernləşdirmə prosesinin ən mühüm tərkib hissələrini təşkil edir.

3. Aqrar sahənin davamlı inkişafı və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün zəruri elmi dəstəyin həyata keçirilməsinə, fundamental tədqiqatların aparılmasına və tətbiqi xarakterli layihələrə dövlət dəstəyinin göstərilməsi zəruri məsələlər kimi özünü göstərməkdədir. Əslində beynəlxalq təcrübədə də dövlət dəstəyinin prioritetlərindən biri elmi-texniki inkişafın praktiki tətbiqinin stimullaşdırılmasıdır.

4. Kənd təsərrüfatının modernləşməsi prosesinə, beləliklə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə töhfə verən ən vacib amillər sırasında məsləhət-informasiya xidmətləri xüsusi yer tutur. Məsləhət-informasiya xidmətləri elmi, texnoloji və digər yeniliklərlə bağlı məlumatların kənd təsərrüfatı müəssisələrinə vaxtında ötürülməsinə imkan verir, yüksək məhsuldar texnologiyanın, resurslara qənaət texnologiyalarının mənimsənilməsinə şərait yaradır. Bu baxımdan informasiya və məsləhət dəstəyi iqtisadi qurumu ən dolğun və etibarlı şəkildə xarakterizə etməyə, konkret vəziyyət üçün optimal qərarı qəbul etməyə, riskləri azaltmağa və kənd təsərrüfatı müəssisələrinin davamlı inkişafını təmin etməyə əsas verir.

5. Təhlil göstərir ki, aqrar sferanın modernləşdirilməsinin həyata keçirilməsi iqtisadi inkişafın təmin edilməsinə yönəldilmiş investisiya qoyuluşunun həcminin artırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Hazırda kənd təsərrüfatında mövcud potensialdan daha səmərəli istifadə edilməsində, orta və iri həcmli layihələrin həyata keçirilməsində tərəfdaşlarla faydalı iqtisadi əlaqələr yaratmaq baxımından investisiyaların rolu artmaqdadır. Bu baxımdan investisiyalar aqrar iqtisadiyyatın davamlı inkişafının, o cümlədən istehsalın iqtisadi səmərəliliyinin stimullaşdırılması və rəqabətqabiliyyətli istehsalın formalaşmasının əsas vasitələrindən biri kimi özünü göstərir.

6. Aqrar sferanın modernləşdirilməsi ciddi maliyyə vəsaiti tələb etdiyindən bu prosesə dövlət dəstəyinin artırılması xüsusi əhəmiyyətliliyi ilə fərqlənir. Bu baxımdan innovasiya tətbiqinin stimullaşdırılması məqsədilə elmi-texniki tərəqqinin nəticələrini istehsalata tətbiqini həyata keçirən müəssisələrə əlavə maliyyə yardımlarının göstərilməsi prosesin təşviqini sürətləndirməyə ciddi təsir göstərə bilər.

7. Aqrar sferanın modernləşdirilməsi istiqamətlərindən biri də emal sektoru ilə inteqrasiya münasibətlərinin yenidən qurulması və müasir texnologiyalara uyğun modernləşdirilməsidir. Hazırda kənd təsərrüfatı məhsullarının modern texnologiyalar əsasında emalı üçün kifayət qədər ixtisaslaşmış emal müəssisələri mövcuddur. Lakin tədqiqat göstərir ki, qarşılıqlı əlaqələrdə müəyyən problemlər mövcuddur. Bu da istehsalçıların gəlirlərinin səviyyəsinə və beləliklə innovasiya tətbiqinə mənfi təsir göstərir. Odur ki, qarşılıqlı iqtisadi maraqlara uyğun daha effektiv əlaqələrin formalaşmasına ehtiyac vardır.

8. Hazırda hər bir müəssisənin iqtisadi vəziyyəti, əsasən istehsal etdiyi məhsulların keyfiyyəti və rəqabət qabiliyyəti ilə müəyyən edilir. Ən vacib amil olaraq keyfiyyətinin yaxşılaşdırılması, texnoloji proseslərə nəzarətin təşkili, məhsulun istehsalı, saxlanılması, emalı və satışı mərhələlərində itkilərinin azaldılması tədbirlərinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

9. Araşdırmalar göstərir ki, aqrar sahədə iqtisadi səmərəliliyin

yüksəldilməsinin əsas ehtiyat mənbələri kimi əmək məhsuldarlığının yüksəldilməsi, istehsal xərclərinin aşağı salınması, itkilərin azaldılması və məhsulun keyfiyyətinin yüksəldilməsi istiqamətləri və göstəriciləri xüsusi əhəmiyyətliliyi ilə seçilir.

10. Modernləşdirməyə daha çox meylli və rəqabət üstünlüklərinə malik olan bölmələrin üstün inkişafı əsasında, dünya aqrar bazarına səmərəli şəkildə inteqrasiya təmin edilməlidir.

11. Kənd təsərrüfatı sistemində qarşıya qoyulan hədəflərə çatmaq və onun səmərəli inkişafını təmin etmək üçün aqrotexniki, melorasiya, idarəetmə tədbirləri kompleks şəkildə aparılmalı, bir-birini tamamlamalııdr.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Aqrar sahədə innovasiyaları şərtləndirən amillər. Aqrar elmin və təhsilin innovativ inkişafı: dünya təcrübəsi və müasir prioritetlər. 2015-ci ilin Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilməsinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları. 23-24 oktyabr 2015-ci il, Gəncə, Azərbaycan. səh. 375-377.
2. Davamlı inkişafın təmin olunmasında ərzaq təhlükəsizliyinin rolu. AR TN. MDU “Davamlı inkişafın milli modeli və strategiyası” mövzusuna həsr edilmiş respublika elmi konfransın materialları. 27-28 noyabr 2015-ci il, səh. 171-172.
3. Qloballaşma şəraitində aqrar sektorun modernləşməsi problemləri. AR TN. MDU “Qloballaşma və regional inteqrasiya” mövzusuna həsr edilmiş respublika elmi konfransın materialları. 23-24 dekabr 2016-cı il, s. 193-195.
4. Aqrar-sənaye kompleksinin dünya təsərrüfatına inteqrasiya meylləri. AR TN. MDU. “Milli-mədəni irs və onun qloballaşma şəraitində təbliği məsələləri” mövzusuna həsr edilmiş respublika elmi konfransın materialları. 22-23 aprel 2016-cı il, s.294-295.
5. Aqrar istehsalın artırılmasında modernləşdirmənin rolu. Azərbaycan Milli Elmlər Akademiyası. İqtisadiyyat İnstitutu, Elmi əsərlər, buraxılış, Bakı, 2017. s. 122-127.

6. Aqrar sahənin modernləşdirilməsində investisiyaların rolu. Azərbaycan Kooperasiya Universiteti, Bakı 2017.
7. Aqrar sahədə innovasiya siyasətinin reallaşdırlması istiqamətləri. Urbanizasiyalı sənayeləşmə şəraitində mədəni irsin və biomüxtəlifliyin qorunması. Beynəlxalq elmi-praktik konfrans. Gəncə 2017, s. 60-20.
8. Kənd təsərrüfatında innovasiya siyasəti və kadr hazırlığı. Milli iqtisadiyyat və ayrı-ayrı sektorlar üzrə strateji yol xəritəsi: reallıqlar və hədəflər. Elmi konfransın materiallları. 12-13 may Mingəçevir 2017, s.20-23.
9. Azərbaycan dövlətinin aqrar sektorunun modernləşdirmə siyasətinin əsas xüsusiyyətləri. "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsinin aktual problemləri" mövzusuna həsr edilmiş respublika elmi konfransın materialları. Az.Res.T.N. Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı:19 dekabr 2018-cı il, s.226-229.
10. Qlobal iqtisadi tendensiyalar və dünya təsərrüfatının modernləşdirilməsi siyasətinin əsas xüsusiyyətləri."Qlobal tendensiyalar və müasir Azərbaycan" mövzusuna həsr edilmiş Respublika elmi konfransının materialları. Mingəçevir : 7-8 may, 2018-ci il, s. 149-151.
11. Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasəti, Azərbaycan Respublikası Təhsil Nazirliyi "Doktorantların və gənc tədqiqatçıların XXII Respublika Elmi Konfransının" materialları. Bakı: 22-23 noyabr, 2018-cı il, s. 337-340.
12. "Aqrar sahənin modernləşdirilməsi səviyyəsi" "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubilryinin qeyd edilməsi haqqında", Respublika Elmi Konfransının Azərbaycan Memarlıq və İnşaat Universiteti.
13. "Modernləşdirmə kənd təsərrüfatının iqtisadi inkişafının əsası kimi" Mingəçevir Dövlət Universiteti "Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar" mövzusunda Respublika elmi konfransının materialları, Mingəçevir, 6-7 dekabr, 2019
14. Оценка влияния процесса модернизации в аграрном секторе национальной экономики на повышение экономической

эффективности производства, ISSN-1999-2300, Экономика и предпринимательство. №12(113) 2019 г, Журнал включен в Перечень ВАКа РФ Подписной индекс в каталоге Роспечать «Газеты. Журналы». Россия, г. Москва. 13 апреля 2020 г. Стр. 1246-1250.
15. Aqrar sahədə modernləşməmin istehsalın inkişafına təsiri, Azərbaycan Dövlət İqtisad Universiteti. İqtisadiyyat və idarəetmə sahəsində magistr və doktorantların Beynəlxalq Elmi Konfransı. Bakı, 29-31 may, 2020, 1389-1396.
16. Aqrar sahədə modernləşmənin sürətləndirilməsində innovasiya fəaliyyətinin əhəmiyyəti. ARTN MDU "Regional inkişafın tənzimlənməsində innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar" Beynəlxalq Elmi Konfransının materialları. 11-12 dekabr 2020, s. 287-289.
17. Перспективы расширения использования инноваций в процессе модернизации аграрного сектора. Перспект Научно-исследовательский центр «Иннова». «Научные достижения в XXI веке», Сборник научных трудов по материалам XIX Международной научно-практической конференции, 1 апреля 2021 года, г,-к, Анапа, с. 39-45.
18. Aqrar sahənin modernləşməsi səviyyəsi və ona təsir edən amillər. ARTN Azərbaycan Texnologiya Universitet "İnnovasiyalı iqtisadiyyat və menecment", №1/5, Gəncə - 2021, s. 58-64.
19. Aqrar sferanın modernləşdirilməsi prosesinə investisiyaların təşviqi. Azərbaycan Dövlət Aqrar Universiteti, ADAU-nun Elmi Əsərləri. Gəncə-2021, №1, səh. 113-117.
20. İnvestisiya qoyuluşlarının aqrar sahənin modernləşdirmə prosesinə cəlb edilməsi imkanları. Azərbaycan Dövlət Aqrar Universiteti, ADAU-nun Elmi Əsərləri. Gəncə-2021, №2, səh. 81-86.
21. Aqrar sahənin modernləşdirilməsində dövlətin dəstək və stimullaşdırıcı tədbirlərinin prioritetləri. Mingəçevir Dövlət Universiteti. Dayanıqlı İnkişaf (multidisiplinar elmi jurnal), Cild 1, №2, Mingəçevir - 2021, səh. 22-28.

Dissertasiyanın müdafiəsi 01 dekabr 2023-cü il tarixində saat: $11^{00}$-da AMEA İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Azərbaycan Respublikası Bakı şəhəri, H.Cavid prospekti, 115

e-mail: economicscomaz@gmail.com

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları ETN İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir

Avtoreferat "23" oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.10.2023

Kağızın formatı: A5

Həcm: 41944

Tiraj: 100